# Ali Məqamlı Rəhbər tasua axşamı təşkil olunan matəm mərasimində iştirak etdi - 2 /Nov/ 2014

Tasua axşamı İmam Xomeyni (r.ə) adına hüseyniyədə İslam İnqilabının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xameneinin iştirakı ilə Həzrət Seyyidüş-şühəda Hüseynin (ə) şəhadətinə matəm mərasimi təşkil olundu.

Dövlət rəsmilərindən bir qrupunun və xalqın müxtəlif təbəqələrini təmsil edən minlərlə insanın iştirakı ilə keçən mərasimdə Höccətül-islam vəl-muslimin Pənahiyan Hüseyn (ə) qəhrəmanlığının möhtəşəm aspektlərindən danışdı.

O, düşmənini dəqiq tanımağın vacibliyini vurğulayaraq dedi: "Gözüaçıq olan və düşmənlərini düzgün tanıyan bir cəmiyyəti heç kəs və heç bir cərəyan aldada bilməz".

Höccətül-İslam vəl-muslimin Pənahiyan qeyd etdi ki, mömin insan ilahi övliyaların əzəmətinə, Allahın düşmənlərinin isə haqsız və rəzil olduqlarına inanmalıdır. O dedi: "Kərbəlada İmam Hüseyn (ə) öz silahdaşlarının üstünlüyünü, batil cəbhənin isə rəzalətini lazımınca nümayiş etdirdi və düşmənlərinin iç üzünü tarixdə əbədi qalası şəkildə açdı".

Natiq həmçinin aşağıdakı fikirləri səsləndirdi: "Kərbəla qəhrəmanlığı İslam ümmətini sadəlövhlük və bəsit düşüncədən uzaqlaşdırdı, möminlərə düşmənin zahiri davranışlarına heç vaxt aldanmamalı olduqlarını anlatdı".

Mərasim əsnasında Əhli-beyt (ə) məddahları cənab Behtaş və cənab İnsani İmam Hüseyn (ə) və onun səhabələrinin üzləşdiyi müsibətləri yad etdilər.

**Materialdan istifadə edərkənWWW.LEADER.İRsaytına istinad zəruridir**